## ƏDƏBİYYAT VƏ FOLKLOR

**UOT 82-94**
https://doi.org/10.59849/2218-4783.2026.2.170

# BİR XATİRƏNİN İZİ İLƏ

# FOLLOWING THE TRACE OF A MEMOIR

**Fərman XƏLİLOV***

**XÜLASƏ**

Yüz ildən artıq yaşı olan Naxçıvan teatrının tarixi və keçdiyi inkişaf yolunu bütöv və sistemli şəkildə öyrənmək üçün hər bir arxiv sənədinin, mətbuat materiallarının və digər faktların müəyyən əhəmiyyəti vardır. Belə materiallardan biri də bu teatrın formalaşmasının ayrı-ayrı mərhələlərində burada fəaliyyət göstərən aktyor, rejissor, rəssam, bəstəkar, hətta inzibati işçilər, habelə bu və ya digər dərəcədə həmin teatrla bağlı olan şəxslərin xatirələridir.

Məqalədə 1935-1940-cı illərdə Naxçıvan teatrının rəssamı olmuş Nağı Nağıyevin (1910-1981) çoxda böyük olmayan, lakin əhəmiyyətli məlumatlarla diqqəti cəlb edən xatirəsindən bəhs olunur.

Xatirənin ətraflı şəkildə təhlili nəticəsində aydın olur ki, sonralar istedadlı bir yazıçı kimi tanınan N.Nağıyevin 1935-1940-cı illərdə Naxçıvan teatrında bir sıra əsərlərin tamaşaya hazırlanmasında quruluşçu rəssam kimi müəyyən xidmətləri olmaqla yanaşı, o, Naxçıvanda yaşadığı illərdə məşğul olduğu rəssamlıq sahəsinin başqa istiqamətlərində də öz qabiliyyətini nümayiş etdirə bilmişdir.

Müəllif məqalədə konkret faktlara əsaslanaraq belə qənaətə gəlir ki, N.Nağıyev təkcə ədəbiyyat yox, həm də mədəniyyət tariximizdə özünəməxsus xidmətləri ilə iz buraxan və xatırlanmağa layiq olan ədəbi simalardan biridir.

**Açar sözlər:** *Nağı Nağıyev, Naxçıvan teatrı, quruluşçu rəssam, rəssamlıq emalatxanası, firlanan səhnə.*

**ABSTRACT**

Every archival document, press material, and other factual source is of particular importance for the comprehensive and systematic study of the history and developmental path of the Nakhchivan Theatre, which has a history spanning more than one hundred years. Among such materials are the memoirs of actors, directors, artists, composers, administrative personnel, and other individuals associated with the theatre to varying degrees during different stages of its development.

The article discusses a relatively brief yet highly informative memoir by Nagi Nagiyev (1910-1981), who served as an artist of the Nakhchivan Theatre between 1935 and 1940.

A detailed analysis of the memoir reveals that N. Nagiyev, who later gained recognition as a talented writer, not only made a notable contribution as a stage designer in the production of several performances at the Nakhchivan Theatre during 1935-1940, but also demonstrated his artistic abilities in other fields of visual art while living in Nakhchivan.

Based on concrete facts, the author concludes that N. Nagiyev is one of those literary figures who left a distinctive mark not only on literature but also on the history of Azerbaijani culture and therefore deserves to be remembered.

**Keywords:** *Nagi Nagiyev, Nakhchivan Theatre, stage designer, art workshop, revolving stage.*

## GİRİŞ

Azərbaycanın tanınmış yazıçısı Nağı Nağıyevin bizim xahişimizlə 1972-ci ildə qələmə aldığı "Naxçıvan teatrında rəssamlıq fəaliyyətim" sərlövhəli xatirəsi öz məzmunu və məlumatlarının yeniliyi və orijinallığı ilə diqqətəlayiqdir.

*AMEA Naxçıvan Bölməsi, e-mail: fermanhalilov@yahoo.com
ORCİD: 0009-0004-9597-7507

Xatirənin tam mətni belədir:

*“Mən 1935-ci ildən Naxçıvan Dövlət Teatrında quruluşçu rəssam kimi işləməyə başlamışam. O zaman mən Naxçıvan şəhər 1 nömrəli orta məktəbdə müəllim idim. Teatrın direktoru Əli Xəlilovun xahişi ilə məktəbdə dərslərim qalmaqla teatra quruluşçu rəssam getdim. O vaxtlar teatrın rəssamı Şamil Qazıyev idi. Teatrda rəsm işləri çox idi, bir adam çatdıra bilmədiyi üçün quruluş və dekorasiya işləri ləngiyirdi. Biz Şamillə əlbir işləyib quruluş işlərini qaydaya salırdıq. Bundan əlavə teatrın binası da köhnə idi, əvvəllər bəy-xanların klubu olmuşdu. Bu bina indiki Böyük bağın ortasında idi. Səhnə, zal, foye kiçik olduğuna görə yaradıcılıq işləri üçün yaramırdı, xüsusilə rəssamlıq işlərini görmək üçün heç bir şərait yox idi. Biz dekorasiyaları, pərdələri zalda , foyedə hazırlamalı olurduq.*

*Əli Xəlilov başqa işə keçdiyi üçün 1936-cı ildə Qasım Əliyev teatra direktor təyin edildi. Qasım Əliyev o vaxtlar Bakı fəhlələrindən rayonlara göndərilən iyirmibeşminçilərdən idi. Qasım Əliyev çox təmiz, yeniliyə can atan adam idi. Əlbəttə, Qasım Əliyev teatr adamı deyildi, buna görə də o, yaradıcı işçilərə daha çox qulaq asırdı. Həmin ildə Moskvada təhsil almış Həsən Ağayev teatra baş rejissor göndərildi. Ondan əvvəl Səməd Mövləvi teatrın aktyoru olmaqla, eyni zamanda rejissor idi. Həsən Ağayevin teatra gəlməsi ilə teatrda dönüş yarandı: quruluşlar, dekorasiyalar, arxa pərdələr təzələndi, yay teatrı genişləndirildi. Sonra səhnə bizi düşündürməyə başladı. Belə qərara gəldik ki, səhnəni mexanizm üzərində qurmaq lazımdır ki, səhnə fırlansın. Mən çertyojlar hazırladım, o vaxtkı Naxçıvan şəraitində çox çətin də olsa, bu işi başa çatdırdıq. Səhnəmiz mərkəzdə və yanlarda qurulmuş diyircəklərin və təkərlərin köməyilə fırlanmağa başladı. Bu, böyük imkan yaratdı və hamını sevindirdi. Biz sonrakı quruluşları fırlanan səhnə üzərində qurur, tamaşanın gedişini sürətləndirir, vaxtın itməsinə, tamaşaçıların darıxmasına yol vermirdik. Deməliyəm ki, səhnənin arxasında, yanlarında yer olmadığı üçün dekorasiyalar həyətə (yay tamaşası yerinə) yığılır, hər pərdə arxasında səhnə söküldükcə oradan çıxarılır, yeniləri həyətdən səhnəyə daşınırdı. Odur ki, səhnə gec sökülüb qurulur, pərdəaraları həddən çox vaxt alır, camaatı gözləməyə, darıxmağa məcbur edirdi. Dekorasiyalar isə sınıb dağılırdı, həm də qapı açıq qalırdı ki, həyətin soyuğu səhnəyə, oradan da içəri dolub zalın soyumasına səbəb olurdu. Bütün bunlara görə səhnənin fırlanan olması çox vacib idi. Səhnə yenidən qurulduqdan sonra ilk tamaşamız C.Cabbarlının “Almaz” pyesi oldu. Əsərin quruluşçu rəssamı mən idim. Səhnənin kiçik olmasına baxmayaraq, biz “Almaz”ın bütün səhnələrini elə quruluşda vermişdik ki, səhnə bir dəfə gündüzdən qurulur, tamaşa zamanı heç nəyə toxunulmadan oyun axıra kimi, həm də çox sürət və effektlə davam edirdi.*

*Səhnənin belə qurulmasında Həsən Ağayevin, Qasım Əliyevin və dülgər Əli Qasımovun böyük fəaliyyətləri oldu. Sonralar teatrda rejissor və rəssam qüvvəsi daha da qüvvətləndirildi. Belə ki, rejissor Yusif Yulduz, rəssam Əyyub Hüseynov da işə götürüldülər.*

*Mən “Yaşar”, “Hacı Qara”, “Polad qartal”, “Özgə uşağı” və yadımdan çıxan bir neçə pyeslərin quruluşunu verməli oldum.*[1] *Deməliyəm ki, Şamil Qazıyevin bir rəssam kimi mənə köməyi az deyildi. Biz üçümüz*[2] *də əl-ələ verib, tərtibatların keyfiyyətini yaxşılaşdırmağa çalışırdıq. Mən teatrda rəssam olarkən, eyni zamanda orta məktəbdə dil-ədəbiyyat müəllimi idim. Teatrda yaradıcılıq işləri ilə məşğul olmağım, dramaturgiya ilə yaxınlığım məndə yazmaq həvəsi oyatdı. 1938-ci ildə “Səadət və sədaqət” adlı pyesimi yazdım və Bakıda təsdiq etdirdim. Lakin Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq həm teatrdan aralanmalı oldum, həm də əsər tamaşaya qoyula bilmədi. Mən cəbhədə olarkən “Ölümdən həyata” adlı əsərimi yazdım. Bu da “Polad” adı ilə Naxçıvan və Ordubad teatrlarında tamaşaya qoyuldu. 20 mart 1972”.*

N.Nağıyevin rəssamlıq sənətinə yiyələnməsi və Naxçıvan teatrında quruluşçu rəssam işləməsi haqqındakı məlumatları ayrı-ayrı illərdə çap olunan “Azərbaycan sovet yazıçıları” [Əhmədov, 1987, s. 427-428] və “Azərbaycan yazıçıları (XIX-XX yüzilliklərdə). Ensiklopedik məlumat kitabı”nda [Əhmədov, 2011: 632] yazılanlar tam təsdiq edir.

Xatirə ilk dəfə bizim tərəfimizdən 1986-cı ildə oxuculara təqdim olunmuşdur [Xəlilov, 1990: 4]. 2014-cü ildə isə “Naxçıvan teatrı. Məqalələr, xatirələr” adlı kitabımıza daxil edilmişdir [Xəlilov, Cəfərov, 2014: 247-248].

Xatirə oxuculara təqdim olunandan təxminən 20 il sonra dosent Əli Qəhrəmanovun “Naxçıvan teatrında rəssam işi” adlı monoqrafiyasında [Qəhrəmanov, 2025: 80-90] tədqiqata cəlb olunmuş və onun elmi əhəmiyyəti dəyərləndirilmişdir.

**XATİRƏNİN ŞƏRHİ**

Bu dəyərli xatirənin bəzi məqamlarının izah və şərhə ehtiyacı vardır. Həm də onun izi ilə gedib N.Nağıyevlə bağlı bəzi məsələləri oxucuların diqqətinə çatdırmaq olar. Məsələn, müəllif yazır ki*: “Əli Xəlilovun xahişi ilə teatra quruluşçu rəssam getdim”.* Ə.Xəlilovun “Naxçıvan teatrının tarixi” kitabından aydın olur ki, o, N.Nağıyevi hələ rəssamlığa təzə-təzə meyl etdiyi ilk illərdən tanıyırmış və qabiliyyətinə bələd imiş: *“Bəhruz Kəngərlidən sonra onun yetişdirmələrindən olan Adil Qazıyev səhnə tərtibatı işində yaxından iştirak etməyə başladı. Adil Bakı Rəssamlıq Məktəbini bitirdikdən sonra... (1925-ci ildə – F.X.) hətta teatrın yanında rəssamlıq studiyası təşkil edib Hüseyn Əliyev, Şamil Qazıyev,* ***Nağı Nağıyev****, İdris Səlimov, Mirzə Əkbərov kimi istedadlı gəncləri bu studiyaya cəlb etmişdi”* [Xəlilov, 1964, s. 56]. Buradan o da məlum olur ki, N.Nağıyevin rəssamlıq sənətində atdığı ilk addımları 1925-ci ildən başlayır. Bunu, yəni onun rəssamlığa başlamasını və hətta rəssamlığına xitam verməsini təsdiq edən məlumata isə yazıçının oğlu Vasif Nağıyevin atası haqqında yazdığı çox dəyərli bir xatirəsində rast gəlirik: *“Atamın rəssamlıq fəaliyyəti onun Naxçıvanda yaşadığı dövrü əhatə edir. Bakıya köçdükdən sonra isə (1951-ci ildə – F.X.) rəssamlıqla məşğul olmamışdır”* [Nağıyev, 2020: 186].

Xatirənin bir yerində N.Nağıyev 1936-cı ildə hazırladığı çertyoj əsasında Naxçıvan teatrında “fırlanan səhnə” düzəldilməsindən söz açır. Bu, son dərəcə mühüm və diqqətəlayiq bir məlumatdır. Əgər digər yazılı mənbələr və arxiv materialları həmin məlumatı təsdiqləyərsə, belə qənaətə gəlmək olar ki, Azərbaycanda ilk fırlanan səhnə Naxçıvanda yaradılıb, onun layihə müəllifi və qurucusu isə Nağı Nağıyevdir. Hər halda bu məsələnin elmi cəhətdən əsaslandırılmağa ehtiyacı vardır.

Yuxarıda adı çəkilən Ə.Qəhrəmanovun monoqrafiyasına [Qəhrəmanov, 2025, s. 81] istinad edərək xatirəsində “və yadımdan çıxan bir neçə pyeslərin quruluşunu *(bədii tərtibatını – F.X.)* verməli oldum” yazan N.Nağıyevin oxucularının yadına salmaq istəyirik ki, onun bədii tərtibatını verdiyi yadından çıxan bəzi əsərlər bunlardır: C.Məmmədquluzadə. “Ölülər” (1937), C.Cabbarlı. “Almaz”, “Sevil”, ”Yaşar” (1937), S.Rüstəm. “Qaçaq Nəbi” (1939), H.Quliyev. “Qohumlar” (1939), Ə.Abbasov. “Azad” (1939).

N.Nağıyevin rəssamlıq fəaliyyəti təkcə Naxçıvan teatrında quruluşçu rəssam işləməsilə bitmir. Onun rəssamlıq fəaliyyəti daha əhatəli olmuşdur.

Şair Hüseyn Razi: *“Müharibədən sonra Naxçıvanın köhnə kolxoz bazarı ilə yanaşı onun (N.Nağıyevin – F.X.) naqqaşlıq emalatxanası var idi”* [Razi, 1990: 4].

Oğlu Vasif Nağıyev: *“Bu emalatxana... çoxsaylı üstüörtülü qalereyaların birində çox iri və hündür bir otaqda yerləşirdi... Burada rəssamlıqla bərabər, bir çox xırda işlər də (müxtəlif əlamət-dar günlər münasibətilə plakatlar, maketlər, şüarlar və s. – F.X.) yerinə yetirilirdi”* [Nağıyev, 2020: 186].

N.Nağıyevin öz xatirəsində toxunmadığı, lakin rəssamlıq fəaliyyətinin dəyərləndirilməli işlərindən biri də onun 1947-ci ildə Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyi münasibətilə Naxçıvan Pedaqoji İnstitutunda “Nizami Gəncəvi zalı”nı hazırlaması idi. V.Nağıyevin verdiyi məlumata görə bu zalın çoxsaylı pəncərələri Şərq üslubunda dekorasiya olunmuş, aralıqlara Nizaminin “Xəmsə”sində olan motivlərə uyğun quaşla çərçivə daxilində iri ölçülü rəngli şəkillər çəkilmiş, naxışlar salınmışdı [Nağıyev, 2020: 187].

**RƏSSAMLIQ FƏALİYYƏTİNİN DƏYƏRLƏNDİRİLMƏSİ**

Elmi ədəbiyyatda N.Nağıyevin rəssamlığı haqqında geniş şəkildə bəhs edilməsə də, ayrı-ayrı vaxtlarda çap olunan bəzi məqalələrdə onun bu istiqamətdəki fəaliyyəti də xatırlanmışdır.

Ədəbiyyatşünas Yəhya Seyidov: *"Nağı Nağıyev 1930-cu ildən pedaqoji fəaliyyətə başlamış, müəllim və maarif müfəttişi olmuş, eyni zamanda bir rəssam kimi tanınaraq 1934-1941-ci illərdə Naxçıvan teatrında **quruluşçu rəssam** vəzifəsində çalışıb bir sıra klassik və müasir əsərlərə tərtibat vermişdir"* [Seyidov, 1967: 3].

Yazıçı Fərəc Fərəcov: *"N.Nağıyev öz istedadı sayəsində **rəssamlıq sənətini** öyrənir. İncəsənətin bu sahəsinə olan meyli və fəaliyyəti onu **Bəhruz Kəngərli rəssamlıq məktəbinin davamçısı kimi tanıdır"*** [Fərəcov, 2000: 46].

Dosent Nəzakət Hüseynqızı: *"Nağı Nağıyev həm də **gözəl rəssam olmuşdur.** O, Naxçıvan teatrında quruluşçu rəssam kimi "Hacı Qara", "Yaşar", "Polad" və başqa əsərlərə səhnə tərtibatı vermişdir"* [Hüseynqızı, 2010: 5].

Yazıçı-publisist Sevda Əlibəyli: *"Nağı Nağıyevin **rəssamlıq fəaliyyəti** 1936-1940-cı illəri əhatə edir. O, bu sahəyə yeniliklər gətirərək səhnəni genişləndirir və fırlanması üçün qurğu qurur*" [Əlibəyli, 2010: 22].

Yazıçının nəvələri Yeganə Qəhrəmanlı və Mələk Süleymanova: *"Nağı Nağıyevin bir əsəri Mircəfər Bağırovun yubileyinə həsr olunmuşdu. Bu əsər Nağı Nağıyevin tərtibatı və rəhbərliyi ilə 120×80 sm ölçüdə ağ kətanın üzərində rəngli ipək saplarla məktəbli qızlar tərəfindən işlənmişdir. Həmçinin müəllifin yağlı boya ilə işlənmiş xeyli portret və başqa əsərləri olmuşdur"* [Qəhrəmanlı, Süleymanova, 2012: 9].

N.Nağıyevin rəssamlıq səriştəsini təsəvvür etmək üçün onun bədii əsərlərindən də xeyli nümunələr göstərmək olar. Lakin biz yazıçının məşhur "Həsrət" romanından seçdiyimiz bir nümunə ilə kifayətlənirik: "Sədr köksünü ötürüb ətrafa göz gəzdirdi. Araz həmişəki kimi hərəkətdə, həmişəki kimi qıvrılmaqda, parıldamaqda idi. Bu taya boyun əyəndə çiçəklər ondan busə alır, o taya yönələndə boz, sərt qayalara dəyib qeyzlə yenə bu sahilə dönürdü. İki sahil arasında qəribə bir əksiklik vardı. Ora gözəl cənubun ən uğursuz, təbiət gözəlliyindən məhrum bir guşəsi idi. Araz kənarında heç bir əkin sahəsi yox idi, çünki buralarda nə bir çay, balaca axar su, nə də bir bulaq vardı, çaylar xeyli aralı dərələrdən axır, buralarsa susuzluqdan bəhərsiz qalmışdı. Təbiətin bu əməlinə Cəmil qəlbində acıdı. Ancaq nə etmək olardı? Məgər dünyada belə – bir yanı səfalı, bir yanı yanıq yerlər azdırmı? Arazdan uzaqlarda qarlı dağlar yüksəlirdi, düzənlikdə isə yanıq təpələr bir-birini əvəz edə-edə, kəndləri bir-birindən uzaq sala-sala dağlara qədər yüksəlirdi.

Bu aradakı təpə və qayalar üstündə yalnız piyada adam, at və ulaq keçə bilən bir çığır vardı, qaraltılar görünürdü" [Nağıyev, 1974: 173].

Nəhayət, deyilənlərdən belə **nəticəyə** gəlmək olar ki, Nağı Nağıyev təkcə ədəbiyyat yox, həm də mədəniyyət tariximizdə özünəməxsus xidmətləri ilə iz buraxan və xatırlanmağa layiq olan ədəbi simalardan biridir. Onun haqqında bəhs olunan xatirələrini Azərbaycan teatr tarixini öyrənən tədqiqatçılar üçün dəyərli bir mənbə hesab etmək olar.

## ƏDƏBİYYAT


Əhmədov, T. (1987). *Azərbaycan sovet yazıçıları*. Yazıçı.

Əhmədov, T. (2011). *Azərbaycan yazıçıları (XIX-XX yüzilliklərdə)*. Ensiklopedik məlumat kitabı. Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi.

Əlibəyli, S.( 2010). Pedaqoq, nasir, dramaturq, rəssam, ictimai xadim. *Söz*.

Fərəcov, F. (2000). *Yaycı yetirmələri*. Gənclik.

Hüseynqızı, N. (2010, 22 oktyabr). Həyat həqiqətləri. *Ədəbiyyat*.

Xəlilov, Ə. (1964). *Naxçıvan teatrının tarixi*. Azərbaycan Teatr Cəmiyyəti.

Xəlilov, F. (1990, 6 sentyabr). İki xatirə. *Şərq qapısı.*

Qəhrəmanov, Ə. (2025). *Naxçıvan teatrında rəssam işi*. Əcəmi NPB.

Qəhrəmanlı, Y. və Süleymanova, M. (2012). Nağı Nağıyevin ömür yolu və ədəbi irsi. N.Nağıyev. *Seçilmiş əsərləri*. Təhsil.

Nağıyev, N. (1974). *Seçilmiş əsərləri*. Azərnəşr

Nağıyev, V. (2020). Atamdan qalan xatirələrim. *N.Nağıyev: taleyi və sənəti*. Əcəmi NPB.

Xəlilov, F. və Cəfərov, F. (2014). Naxçıvan teatrı. Məqalələr, xatirələr". Naxçıvan: "Əcəmi" NPB.

Razi, H. (1990, 6 sentyabr). Zəhmətkeş yazıçı. *Şərq qapısı.*

Seyidov, Y. (1967). Nağı Nağıyev. N.Nağıyev. *Seçilmiş əsərləri*. Azərbaycan Dövlət Nəşriyyatı.

**Daxilolma tarixi: İlkin variant 25.05.2026**
**Son variant 03.06.2026**